

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 15 (20.916)

25 yanvar 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 23-də Davosda "Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol" mövzusunda qəbul keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda Fransanın xarici işlər naziri Loran Fabius ilə görüşmüşdür.

Loran Fabius Fransa Prezidenti Fransua Ollandın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu vurğulandı. Fransa şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi bildirildi, qarşılıqlı sərmayələrin əhəmiyyətindən danışıldı. Qarşılıqlı səfərlərin ölkələrimiz arasında münasibətlərin inkişafına mühüm töhfə verdiyi bildirildi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Fransua Ollandın salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Fransa Prezidentinə çatdırmağı xahiş etdi.



*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Ulu öndər Heydər Əliyev və Naxçıvan" mövzusunda açıq dərs keçilmişdir. Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin və Naxçıvan Türk Liseyinin şagirdləri açıq dərsdə iştirak etmişlər.*

## Ulu öndər Heydər Əliyev və Naxçıvan



Açıq dərsdə Naxçıvan Türk Liseyinin tarix müəllimi Muxtar Mehralıyev ümummilli liderimiz Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqda danışaraq bildirmişdir ki, müstəqil Azərbaycan xalqımızın böyük oğlu Heydər Əliyevin şah əsəridir. Bu möhtəşəm əsərin möhkəm əsaslarını ulu öndər hələ Sovet hakimiyyəti illərində formalaşdırmışdır. Ulu öndər Heydər Əliyev xalqımızın çoxəsrlik tarixində Azərbaycan adlı müstəqil dövlət yaratmış nadir şəxsiyyətdir.

Qeyd edilmişdir ki, xalqımızın böyük oğlu Heydər Əliyevin zəngin və keşməkeşli tərcümeyi-halında Naxçıvanda siyasi fəaliyyət göstərdiyi dövr mühüm əhəmiyyətə malikdir. Bu dövrdə dahi rəhbər çoxcəhətli yorulmaz fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini yaratmışdır. Ümummilli liderin Naxçıvan Muxtar Respublikasında yaşadığı və Ali Məclisin Sədri vəzifəsində çalışdığı illərdə Naxçıvan ölkəmizdə müstəqil dövlətçiliyin böyük laboratoriyası funksiyasını həyata keçirmişdir. Hələ Sovetlər İttifaqı dağılmamış və Azərbaycanda dövlət müstəqilliyi elan olunmamış üçrəngli Azərbaycan bayrağının dövlət rəmzi kimi qəbul edilməsi səviyyəsində nadir hadisə (17 noyabr 1990-cı il) məhz cəsarətli və uzaqgörən dövlət xadimi Heydər Əliyev tərəfindən Naxçıvanda həyata keçirilmişdi. Dünyada bundan başqa, müstəqil dövlətlər yaranmamış onun milli bayrağının qəbul edilməsi hadisəsinə təsadüf edilməmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması hadisəsi də məhz müdrik rəhbər Heydər Əliyev tərəfindən Sovetlər İttifaqının mövcudluğu şəraitində həyata keçirilmişdir.

Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin tarix müəllimi Şəhla İbrahimova bildirmişdir ki, Naxçıvanda Dünya Azərbaycanlılarının Həmrəylik Gününün müəyyən olunması ilə dünyada azərbaycanlılar anlayışı meydana çıxmış və geniş bir hərəkatın əsası qoyulmuşdur. XX əsrin doxsanıncı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasının işğal olunmaqdan xilas edilməsi, ölkəmizə ərazi bütövlüyünün qorunub saxlanılması xalqımızın böyük oğlu Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Müstəqil Azərbaycanın taleyində xüsusi əhəmiyyətə malik olan Yeni Azərbaycan Partiyasının da dahi rəhbər Heydər Əliyev tərəfindən Naxçıvanda yaradılması ölkəmizin milli istiqlalında böyük öndərin həyatı və fəaliyyətinin Naxçıvan dövrünün müstəsna dərəcədə əhəmiyyətli olduğunu bariz şəkildə göstərməkdədir.

Açıq dərsdə vurğulanmışdır ki, Azərbaycan Respublikası ulu öndər, görkəmli dövlət xadimi, Milli Qurtuluşun banisi, böyük xilaskarlıq missiyasını bacarıqla həyata keçirmiş Heydər Əliyevin müstəqillik və milli dövlətçilik ideyalarını dünyada gedən proseslərə, ölkənin reallıqlarına uyğun şəkildə yaradıcılıqla inkişaf etdirilməsi sayəsində böyük sabahlara doğru qətiyyətlə addımlayır.

Sonra açıq dərsin iştirakçıları muzeydəki eksponatlarla tanış olmuşlar.

## "Muxtariyyət ili" ilə əlaqədar tədbir keçirilmişdir

2014-cü ilin Naxçıvan Muxtar Respublikasında "Muxtariyyət ili" elan olunması ilə əlaqədar dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin və Naxçıvan Dövlət Texniki Kollecinin birgə təşkilatçılığı ilə tədbir keçirilmişdir. Naxçıvanşünaslıq Mərkəzində keçirilən tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Emin Məmmədov açaraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 fevral 2011-ci il tarixli Sərəncamı ilə yaradılmış Naxçıvanşünaslıq Mərkəzi 9 fevral 2013-cü il tarixdə istifadəyə verilmişdir. Müasir avadanlıqlarla təmin olunmuş mərkəzdə kitabxana, elektron oxu zalı və arxiv fondu fəaliyyət göstərir. İndiyədək burada 1962 kitabın elektron kataloqu yaradılmış, 548 adda çap məhsulunun isə elektron variantı hazırlanaraq mərkəzin saytına yerləşdirilmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvanın qədim tarixinin, mədəniyyətinin, dövlətçilik əsaslarının öyrənilməsində mərkəzin böyük əhəmiyyəti vardır. 2014-cü ilin muxtar respublikada "Muxtariyyət ili" elan olunması qarşıya böyük vəzifələr qoymuşdur.

Sonra Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Məhəmməd Qəribovun, kollecin müəllimləri Xəzər Hüseynov və Süreyya Ələkbərovanın məruzələri dinlənilmişdir. Məruzələrdə qeyd olunmuşdur ki, Naxçıvanın əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək Yolunun üzərində yerləşməsi onu fatehlərin, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirmişdir. Ərazisi dəfələrlə müharibə meydanına çevrilsə də, Naxçıvan heç zaman əyilməmiş, xalqımıza məxsus mədəniyyəti, adət-ənənələri, ən vacibi isə tarixi ərazisini qoruyub saxlamışdır. Hələ XII əsrdə Naxçıvan şəhəri qüdrətli Atabəylər dövlətinin paytaxtı olmaqla bölgənin inkişafına, müdafiə qabiliyyətinin gücləndirilməsinə, inzibati idarəçiliyin formalaşmasına özünəməxsus töhfələr vermiş, milli dövlətçilik tariximizdə mühüm rol oynamışdır.



Bildirilmişdir ki, ötən əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu diyarı Ermənistana birləşdirmək üçün bütün vasitələrə əl atmışlar. Bölgə əhalisinin inadlı müqaviməti nəticəsində Naxçıvan Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış və son nəticədə, ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Beynəlxalq Moskva və Qars müqavilələri Naxçıvan diyarının tarixi taleyini, onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalmaq imkanını reallaşdırmışdır. Tarixi proseslərin inkişafının nəticəsi olaraq, Naxçıvan 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır. Vurğulanmışdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində – bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasında, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Həmin dövrdə muxtar respublika müxtəlif çətinliklərə düçar olsa da, xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsində Naxçıvan bu vəziyyətdən çıxa bilmiş və bugünkü dinamik inkişaf yoluna qədəm qoymuşdur. Blokada şəraitində olan muxtar diyarın hərtərəfli və sürətli inkişafı bu gün hər elə nümunədir.

Sonra tədbir iştirakçıları Naxçıvanşünaslıq Mərkəzi ilə yaxından tanış olmuşlar.

"İqtisadi cəhətdən sürətlə inkişaf edən, beynəlxalq aləmdəki nüfuzu gündən-günə daha da artan, həyata keçirdiyi regional və qlobal layihələrlə dünyanın diqqətini özünə cəlb edən qüdrətli Azərbaycan Respublikası bu gün yüksək döyüş qabiliyyətinə malik mütəşəkkil, nizami və peşəkar silahlı qüvvələrə malikdir. Qürurla deyə bilərik ki, respublikamız iqtisadi və siyasi nailiyyətlərə imza atmaqla yanaşı, ordu quruculuğu prosesində də ardıcıl uğurlar əldə edib, Cənubi Qafqaz regionunun qüdrətli orduya malik güclü dövlətə çevrilib. Müasir texnika və silahlarla tam təchiz olunmuş ordumuz artıq qarşıda duran bütün vəzifələri yerinə yetirməyə hazır möhtəşəm bir gücə malikdir".

## Gənclər ordu sıralarına yollanır

Bu fikirlər dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şərur Rayon İdarəsində keçirilən gənclərin hərbi xidmətə yola salınması mərasimində ifadə olunub.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Mərasimi giriş sözü ilə idarənin rəis əvəzi, mayor Cəfər Hüseynov açaraq bildirib ki, hərbi xidmət keçmək, Vətəni qorumaq hər bir azərbaycanlı gəncin vətəndaşlıq borcudur. Milli Ordumuzun ilk yarandığı dövrlərdən fərqli olaraq, indi hərbi hissələrimizdə xidmət üçün hərtərəfli şərait yaradılıb. Dövlətimizin orduya böyük diqqət və qayğısının nəticəsidir ki, indi silahlı qüvvələrimiz müasir maddi-texniki baza ilə təmin olunub, şəxsi heyətin psixoloji hazırlığı yüksək səviyyədədir. Buna görə də hər il gənclərimiz böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yollanır, xidməti vəzifələrini layiqincə yerinə yetirirlər. Unutmaq olmaz ki, qarşıda Azərbaycan əsgərini böyük sınaqlar gözləyir. Bu baxımdan hər bir əsgər hərbi xidmətdə özünü hərtərəfli hazırlamalı, texniki biliklərə dərindən yiyələnməlidir. Çünki işğal altında olan torpaqlarımızın azad edilməsi əsgərin əzmi, qətiyyəti və düşmənə layiqli cavabı sayəsində həyata keçəcək.

Mərasimdə Şərur Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Əli Qəribovun, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının Şərur Rayon Şöbəsinin sədri Elsevər Rüstəmovun, Şərur Rayon Prokurorluğunun baş müstəntiqi Abbas Hüseynəliyevin, Şərur Rayon Polis Şöbəsinin rəis müavini Nəzmi Vəliyevin çıxışları olub.

Valideyn Müseyib Hüseynov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yola salınmasının, bütün valideynlər kimi, ona da qürur hissi yaşatdığını deyib.

Çağırışçılar adından çıxış edən Vüsal Hüseynov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını can-başla yerinə yetirəcəklərinə söz verib.

Qeyd edək ki, analoji tədbir Ordubad, Culfa və Kəngərli rayonlarında da keçirilib. Şəhər və rayonlarımızda yolasalma mərasimləri "Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2013-cü il tarixli Sərəncamına əsasən keçirilir.

**Xəbərlər şöbəsi**



# 90 yaşlı muxtariyyət ailəsinin 10 yaşlı gənc üzvü və ya qədim Kəngərli yurdunun bu günü

***Azad və müstəqil yaşamaq hər kəsin haqqıdır. Ancaq tarix boyu bu haqqı əldə edə bilməyən xalqlar da az olmayıb. Bu, elə bir haqdır ki, onu vermirlər – qazanırlar. Məhz çətin tarixi dövrlərə sinə gərərək azadlıq və müstəqillik yolunda canlarını fəda etmiş qəhrəman övladlarımızın sayəsində xalqımız ötən əsrin sonlarında bu haqqını yenidən bərpa etdi. Bu tarixi proses bir daha onu göstərdi ki, qurub-yaratmaq əzmində olan xalqımız üçün müstəqillik hər şeydən öndə gəlir. Əgər bunu əldə edə bilməsəydik, bu gün qürurla ölkəmizin, muxtar respublikamızın hərtərəfli inkişafından, vətəndaşlarımızın rahat və firavan həyatından danışa bilməzdik. Həm də buna, necə deyərlər, haqqımız da çatmazdı. Müstəqillik bizə layiq olduğumuzu yaşamaq, edə biləcəklərimizi həyata keçirmək üçün yeni ruh verdi. Elə bu yazıda haqqında söhbət açacağımız Kəngərli rayonu da müstəqil Azərbaycanın müstəqil qərarları ilə həyata vəsiqə almış və durmadan inkişaf edən bir bölgəsidir.***

Cəmi 10 il bundan əvvəl kəngərlilərə (rayon sakinləri nəzərdə tutulur) boş və quru çöllük əraziləri göstərib burada rayon salmağın mümkünlüyü haqqında danışsaydın, etiraf edim ki, bunu normal ideya kimi qarşılamazdılar. Ancaq tarix sübut edir ki, istənilən sahədə ağlagəlməz ideyaları yalnız qətiyyətli, uzaqgörən şəxsiyyətlər uğurla reallaşdıra bilirlər. Susuz, hətta əkin üçün yararlı olmayan bu sahələrdə hərtərəfli infrastruktur yaratmaq, onu müasir rayon mərkəzinə çevirmək, sözün açığı, gözəl bir nağılın sonda reallığa çevrilməsinə bənzəyir. Bu il yaranmasının 10-cu ilini qeyd edəcək Kəngərli rayonu isə nağıl yox, reallığın Naxçıvan təntənəsidir.

Qeyd edək ki, 1 qəsəbə və 10 kəndi özündə birləşdirən Kəngərli rayonunun mərkəzi Naxçıvan-Sədərək magistral yolunun kənarında yerləşir. Mərkəzdəki bir-birindən gözəl inzibati binalar, mədəniyyət və istirahət parkı, mədəniyyət evi, rahat yollar bu əraziyə gözəllik və möhtəşəmlik bəxş edir. Əsaslı və kompleks şəkildə aparılan tikinti-quruculuq tədbirlərinin nəticəsidir ki, rayon mərkəzi Qıvraq qəsəbəsi tamamilə öz simasını dəyişmiş, mərkəz üçün lazım olan bütün infrastruktur layihələri uğurla həyata keçirilmiş, rayondaxili, eləcə də kəndarası yeni və rahat avtomobil yolları çəkilmişdir. Muxtar respublikamızda kənd yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər, xüsusilə yeni kənd mərkəzlərinin tikintisi Kəngərli rayonunda da böyük vüsət almışdır. Növbəti sosial obyektlər ötən il noyabrın 18-də Xok kəndində istifadəyə verilmişdir. Kənddə 1080 yerlik məktəb binası, kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzi və 7,6 kilometr uzunluğunda yenidən qurulmuş kənddaxili yollar sakinlərin rahatlığına xidmət edir. Xatırlatmaq yerinə düşər ki, rayonda bütün kənd yolları yenidən qurulmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına uyğun olaraq yenidən qurulan yol yaşayış məntəqələri arasında daha tez, asan və təhlükəsiz nəqliyyat əlaqəsinin qurulmasına öz töhfəsini vermişdir. Uzunluğu 39 kilometr olan və 13 min nəfərdən çox əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qarabağlar-Yurdçu-Qıvraq dairəvi avtomobil yolu adıçəkilən yaşayış məntəqələri sakinlərinin gediş-gəlişini xeyli asanlaşdırmışdır. Maraqlı faktlardan biri də odur ki, Kəngərli rayonu yeni kənd mərkəzlərinin mövcudluğuna görə bütün rayonlardan irəlidədir. Hazırda Yurdçu kəndi istisna olmaqla, bütün kəndlərdə yeni sosial obyektlər tikilmişdir. Bununla yanaşı, quruculuq tədbirləri yenə də davam etdirilir. Rayon mərkəzində yenidən qurulmasına ötən ildən başlanılmış və inşaat işləri tamamlanmış rayon Mərkəzi Xəstəxanasının binası təhvilə hazırdır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan və 30 çarpayılıq bu xəstəxanada bütün zəruri şöbələr fəaliyyət göstərəcək. Rayon sakinlərinin sağlamlığının keşiyində duracaq bu səhiyyə müəssisəsində müasir tibbi avadanlıqlar quraşdırılmışdır. Bununla yanaşı, rayonda Şahmat Məktəbinin də tikintisinə başlanılmışdır.

Kəngərli rayonu da muxtar respublikamızın əksər rayonları kimi kənd təsərrüfatı istiqamətində ixtisaslaşmışdır. Təbii ki, həm suvarma, həm də içməli su mənbələrinin yenidən qurulmasında aparılan meliorativ tədbirlərin əhəmiyyəti böyükdür. Əkin sahələrinin və yaşıllıqların suvarma suyuna olan tələbatını ödəmək üçün ötən il 2700 metrdən artıq, yaşayış məntəqələrində isə içməli su təminatı məqsədilə 1200 metr yeni xətlər çəkilmişdir. Bundan əlavə, ötən il rayonda 4 yeni subartezian quyusunun qazılması, 2 kəhriz, 8 subartezian quyusunun əsaslı təmir edilməsi də həyata keçirilən tədbirlər sırasındadır.

Vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamı rayonda əkinçiliyin inkişafına stimul vermiş, müsbət nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Məhz ötən il rayon təsərrüfatçılarına istifadə etdikləri yanacaq və motor yağlarına görə hər hektara 40 manat olmaqla, 213 min manatdan çox pul vəsaiti və 282 ton mineral gübrə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" rayonda uğurla icra edilir. Muxtar respublikamızın taxıla olan tələbatının daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər Kəngərli rayonunda da öz bəhrəsini verir. Rayon ərazisində ötən il kənd təsərrüfatı istehsalçıları tərəfindən 3869 hektar taxıl sahələrindən 10 min 901 ton məhsul əldə edilmişdir. Hər hektarın məhsuldarlığı 28,2 sentner olmuşdur. 2014-cü ilin məhsulu üçün 3230 hektar sahədə payızlıq taxıl əkini həyata keçirilmişdir ki, bunun da 2647,2 hektarı buğda, 582,8 hektarı isə arpa sahələridir.

Son illərdə rayonda kartofçuluğa da maraq xeyli artmışdır. Sahibkarlara güzəştli şərtlərlə kredit və avadanlıqların verilməsi 2013-cü ildə də uğurla davam etdirilmişdir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon bazasındakı kartofəkən və kartofçıxaran texnikalardan səmərəli istifadə olunaraq 213 hektar sahədə kartof əkini aparılmışdır ki, həmin sahələrdən də 2839 ton məhsul əldə olunmuşdur.

Rayonda kənd təsərrüfatının digər sahələri də diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq, həmçinin ekoloji tarazlığın qorunması məqsədilə rayonun 12 hektarlıq ərazisində yeni bağ salınmış, 7 hektar sahədə isə meşəbərpa işləri aparılaraq 500 ədəd meyvə tingi, 2200 ədəd meşə tingi, 420 ədəd küknar, 7500 ədəd isə gül kolu əkilmişdir. Meyvəçilik və tərəvəzçiliyin inkişaf etdirilməsinə stimul verən vasitələrdən biri də rayonda 300 ton tutumu olan soyuducu anbarın mövcudluğudur.

Kəngərli rayonunun hərtərəfli inkişafında təhsil və mədəniyyət sahələrinin də öz rolu var. Bu gün rayonda mövcud 12 ümumtəhsil məktəbindən 10-u yeni binada fəaliyyət göstərir. Təbii ki, yaradılmış şərait təhsilin səviyyəsinin ildən-ilə yüksəldilməsində də öz sözünü deyir. Belə ki, ötən tədris ilində ümumtəhsil məktəblərini 300 məzun bitirmiş, onlardan 74 faizi – 222 nəfəri ali məktəblərə sənəd vermişdir. Sənəd verənlərdən 89 nəfəri ali məktəblərə, 13 nəfəri isə orta ixtisas məktəblərinə, 31 nəfər Heydər Əliyev adına Hərbi Liseyə, 2 nəfər isə Polis Akademiyasına qəbul olunmuşdur. Ən yaxşı göstərici isə Qarabağlar kənd 2 nömrəli tam orta məktəbdə qeydə alınmışdır. Adıçəkilən məktəbin ali təhsil üçün 20 nəfər sənəd verən məzunundan 14-ü tələbə adını qazanmışdır. Ümumilikdə götürsək, rayon üzrə qəbul imtahanlarında yüksək nəticə göstərənlərin – 500-700 intervalında bal toplayanların sayı 21 nəfər təşkil etmişdir. Ötən il belə məzunların sayı 10 nəfər idi.

Göstərilən dövlət qayğısı rayonun mədəni inkişafına da şərait yaratmışdır. Rayonun Mədəniyyət və Turizm Şöbəsi 1 rayon Mədəniyyət Evi, 5 kənd mədəniyyət evi, 5 klub, 1 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 2 Uşaq Musiqi Məktəbi və 1 Tarix-Diyarşünaslıq Muzeyini əhatə edir. Eyni zamanda dünya əhəmiyyətli Qarabağlar türbəsi, qədim Şahtaxtı hamamı və Şahtaxtinskilər Muzeyi də Kəngərlinin mədəniyyət obyektlərindəndir. Rayonda milli və mədəni dəyərlərimizin təbliği hər zaman diqqət mərkəzindədir. 2004-cü ildə yaradılmış "Kəngər" instrumental ansamblı, 2005-ci ildə yaradılmış qızlardan ibarət "Gülüm hey" folklor qrupu, həm uşaq, həm də böyüklərdən ibarət yallı kollektivləri rayonun mədəni həyatında mühüm rol oynayır. Qarabağlar kənd mədəniyyət evində fəaliyyət göstərən toxuculuq dərnəyi isə toxuculuq sənətinin yaşadılmasına öz töhfəsini verir. Keçirilən mədəni tədbirlərdə rayonun uşaq musiqi məktəblərinin də rolu var.

***Bəli, bu il muxtar respublikamız özünün 90 illik muxtariyyət yaşını qeyd edir. Bu muxtariyyət ailəsinin ən gənc üzvlərindən biri olan gənc Kəngərli rayonu adı ilə qədim keçmişimizə, müasirliyi ilə isə gələcəyimizə işıq saçan bir bölgə olaraq özünün çiçəklənmə dövrünü yaşayır.***

**Səbuhi HƏSƏNOV**

## Növbəti elmi seminar Gəmiqaya ətrafındakı arxeoloji abidələrə həsr edilib

"Gəmiqaya abidəsinin tədqiqinə hələ XX əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə başlanmışdır. Bunun nəticəsi idi ki, 1971-ci ildə Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyəti Gəmiqayada tədqiqat işlərinin aparılmasını, elmi albomun nəşr edilməsini, elmi-kütləvi filmin çəkilməsini qərara almış, 1970-1987-ci illərdə burada tədqiqat işləri aparılmış, araşdırmaların nəticələrini əks etdirən bir sıra elmi materiallar çap olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 2001-ci il 26 aprel tarixli Sərəncamından sonra bu abidənin öyrənilməsi sahəsində işlər daha mütəşəkkilliklə davam etdirilmişdir". Bu fikirlər AMEA Naxçıvan Bölməsində keçirilən "Gəmiqaya ətrafında arxeoloji tədqiqatlar" adlı elmi seminarda səsləndirilib.

Seminarı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Fəxrəddin Səfərli elektron lövhədən və digər texniki imkanlardan istifadə edilməklə keçirilən belə seminarların elm adamları tərəfindən daha maraqla qarşılandığını və geniş müzakirələrin aparılmasına imkan verdiyini deyib. Qeyd olunub ki, ümumilikdə, muxtar respublika ərazisindəki abidələrin öyrənilməsi məqsədilə xeyli iş görülüb. Artıq Naxçıvan ərazisində qeydə alınmış abidələrin sayı 1202-yə çatıb ki, bunların da bir qismi Gəmiqaya ətrafındadır.

İnstitutun Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilov Gəmiqaya ətrafındakı arxeoloji tədqiqatlar haqqında məlumat verib. Fotoşəkillərdən ibarət slayd vasitəsi ilə abidələrin və tapılan maddi-mədəniyyət nümunələrinin xarakterik xüsusiyyətləri təhlil olunub. Sonra mövzu ilə bağlı suallar cavablandırılıb.

Elmi seminara yekun vuran AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev muxtariyyətin 90 illik yubileyinin keçirildiyi "Muxtariyyət ili"ndə təşkil olunan tarixi mövzuda seminarların xüsusilə əhəmiyyət kəsb etdiyini deyib. Qeyd edilib ki, Naxçıvan ərazisindəki abidələrin öyrənilməsi ilə bağlı görülən işlər "Muxtariyyət ili"ndə xüsusilə diqqət mərkəzində saxlanılmalıdır. Elm adamları elmi və kütləvi nəşrlərdə Naxçıvan Muxtar Respublikasının tarixi, iqtisadiyyatı, mədəniyyəti, təbiəti və sair mövzularda məqalələrlə çıxış etməlidirlər.

Elmi seminarda o da diqqətə çatdırılıb ki, növbəti seminarlardan birinin Naxçıvanın muxtariyyət tarixinə həsr edilməsi nəzərdə tutulub.

## İcbari sığortalar üzrə vətəndaşlara sığorta ödənişləri verilmişdir

24 iyun 2011-ci il tarixli "İcbari sığortalar haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən "Daşınmaz əmlakın icbari sığortası" və "Avtomobil nəqliyyatı vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası" üzrə zərərçəkmiş vətəndaşlara sığorta ödənişlərinin verilməsi davam etdirilir. Cari ilin yanvar ayında da bu tədbirlər davam etdirilmiş və Kəngərli rayonunun Qıvraq qəsəbəsində yaşayan Məmmədov Arif Əli oğluna məxsus daşınmaz əmlakın icbari sığortası üzrə yaşayış evinə yanğın nəticəsində dəymiş zərərə görə 7550 manat məbləğində sığorta ödənişi verilmişdir.

Avtonəqliyyat vasitələrinə dəymiş zərərə görə isə bu ay ərzində Culfa rayon sakini İbrahimli Rəşad Hüseyn oğluna 2730 manat, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə nəqliyyat vasitələrinə dəymiş zərərə görə Naxçıvan şəhər sakini Əliyeva Xuraman Yaşar qızına 1744 manat və Şərur rayon sakini Qafarov Qulu Abdulla oğluna 1250 manat sığorta məbləği ödənilmişdir. Ümumilikdə, yanvar ayı ərzində nəqliyyat vasitələrinə dəymiş zərərə görə 15 avtonəqliyyat vasitəsi sahibinə müxtəlif məbləğlərdə sığorta ödənişləri verilmişdir.

**Xəbərlər şöbəsi**

# Əhalinin qətiyyətli mövqeyi Naxçıvan diyarını xilas etdi

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il yanvar ayının 14-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda qeyd olunduğu kimi,*** *“Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır.*

*Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır...*

Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Bunu nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında 2014-cü ili Naxçıvan Muxtar Respublikasında “Muxtariyyət ili” elan etmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb, çətin və keşməkeşli tarixi inkişaf yolu keçmişdir. Vaxtı ilə coğrafi cəhətdən Azərbaycanın mərkəzi ərazilərindən olan Naxçıvan XX əsrin əvvəllərində Azərbaycandan ayrı düşmüş, onunla sərhədi ərazi ləğv olunmuşdur. İri kapitalist dövlətlərinin, xüsusilə Rusiyanın məqsədi Naxçıvanı Ermənistana vermək, bununla, türk dünyasının bir-biri ilə əlaqəsini kəsmək idi. Erməni daşnakları isə yaranmış şəraitdən istifadə edərək Azərbaycanın bir sıra torpaqlarını “böyük Ermənistan”a qatmaq siyasəti aparırdılar. Onların bu niyyətlərində Naxçıvanın zəbt edilməsi ilk planda dururdu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ingilislərin və amerikalıların dəstək və yardımlarından istifadə edən erməni millətçiləri Naxçıvanı işğal etməyə çalışmışlar. Lakin qəhrəman naxçıvanlıların mərdlik və igidliklə apardıqları mübarizə məkrli düşmənlərin arzularının reallaşmasına imkan verməmişdir. Naxçıvanın qəhrəman əhalisi Naxçıvan diyarını Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab etmiş, Azərbaycanla birləşmək uğrunda inadla mübarizə aparmışdır. Naxçıvanlıların qəhrəmanlığından bəhs edən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli Azərbaycan parlamentindəki çıxışında demişdir: “İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını... riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar”.

Ermənistanın Naxçıvana olan iddialarının artdığı bir dövrdə – 1918-ci il iyulun 7-də Kazım Qarabəkir Paşanın başçılığı ilə türk ordusu Naxçıvana gəldi və erməni özbaşınalığının qarşısını aldı. Lakin Birinci Dünya müharibəsində məğlub olan türk qoşunları Mudros müqaviləsinin şərtlərinə görə, Azərbaycanı, eləcə də Naxçıvanı tərk etdi. Bu zaman naxçıvanlılar qarşısında çıxış edən Kazım Qarabəkir Paşa bildirdi ki, “Naxçıvanın gələcək müqəddəratını təmin etmək üçün burada bir hökumət qurulması vacib və zəruridir. Zatən siz naxçıvanlılar milli azadlıq mübarizəsində tarixə şanlı səhifələr yazmışsınız. Dövlətçilik hüququna və ləyaqətinə maliksiniz. Siz bu hüququ, haqqı döyüş meydanlarında düşmənə qələbə çalaraq qazanmışsınız. Şərqin qapısında, Naxçıvanda bir cümhuriyyət qurulmalıdır”.

Naxçıvanlılar Naxçıvanı erməni işğalından qorumaq üçün 1918-ci il noyabrın 3-də Araz-Türk Respublikasını yaratdılar. Araz-Türk Respublikası hökumətinin tərkibi sədrdən və 6 üzvdən ibarət idi. Hökumətin sədri Əmir bəy Əkbərzadə idi. Bu respublikanın ərazisinə Naxçıvan qəzası, Ordubad dairəsi, Sürməli qəzası, Üçmüəzzin qəzasının bir hissəsi, Sərdarabad, İrəvan qəzasının bir hissəsi – Uluxanlı, Qəmərli, Vedi – Şərur-Dərələyəz qəzası, Mehri bölgəsi daxil idi. Sahəsi 8696 kvadratkilometrə çatırdı. Əhalisi bir milyon nəfərdən artıq idi.

Araz-Türk Respublikasının yaradılmasında ən başlıca məqsəd bölgənin erməni işğalına düşməsinə imkan verməmək idi. Hökumətin rəhbərliyi bu istiqamətdə fəal iş aparırdı. Araz-Türk Respublikasının hərbi qüvvələrinin yaradılması və formalaşdırılmasında hərbi nazir İbrahim bəy Cahangiroğlunun böyük əməyi olmuşdur. Onun köməyi ilə qısa müddətdə silahlı qüvvələr təşkil olunur, 500 nəfərlik süvari alayının yaradılmasına başlanılır. Yaradılan könüllü xalq dəstələri, təxminən, 20 tabordan ibarət idi. Taborlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Zəngibasar, Vedibasar və Qəmərlidə yerləşdirilmişdi. Baş Noraşen, Düdəngə və Zeyvədə yerləşən taborlara Fətulla Hüseynov, Şərurda, Sədərəkdə yerləşən taborlara Həsən Şahverdioğlu, Ordubaddakı tabora İbrahimxəlil Axundov, Nehrəm taboruna Kəlbə Muxtar, Cəhri taboruna Kəlbə Kərim, Qulu bəy Dizə taboruna Məmmədrza bəy, şəhər taboruna Hüseyn Əliyev komandanlıq edirdi. Respublika əhalisinin öz müstəqilliyini qorumaq əzmi o qədər böyük idi ki, doğma ocaq və torpaqlarını müdafiə edən könüllü dəstələr işğalçıları təkcə darmadağın etmir, həm də İrəvanın özünü qorxuya salırdı.

Respublika ərazisində milis idarələri və onların sahə şöbələri yaradılmışdı. Bütün qüvvələr Naxçıvanın qorunmasına və idarə olunmasına yönəldilmişdi. Yaradılan könüllü müqavimət dəstələri erməni daşnaklarına layiqli cavab verirdi. Xüsusilə Şərur-Dərələyəz mahalındakı Zeyvə kəndi yaxınlığında baş verən döyüşdə Kalbalı xanın rəhbərliyi ilə 6 min nəfərlik könüllü müqavimət dəstələri erməni hərbi qüvvələrini darmadağın etmişdilər.

Aralarında müəyyən fikir ayrılıqlarına baxmayaraq, Naxçıvanın müdafiəsində Cəfərqulu xan, onun oğlu Kalbalı xan, Kərim xan, Rəhim xan, Kamran xan və yerli ziyalılar çox böyük xidmətlər göstərmişlər. Kalbalı xan respublika silahlı dəstələrinə komandanlıq edir, erməni hücumlarının qarşısını alırdı.

1919-cu ilin yanvarında ingilislər Naxçıvana gəldi və burada general-qubernatorluq yaratdılar. Bir ay sonra Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri də Naxçıvana gəlib çıxdılar. Keçirilən müzakirələrdə siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələləri özündə birləşdirən akt tərtib edildi. Bu akt Naxçıvanın könüllü surətdə AXC-yə birləşməsi haqqında idi.

Naxçıvan əhalisi diyarın ingilislər tərəfindən Ermənistana verilməsinə qarşı mübarizəyə qalxdı.

Bununla əlaqədar Naxçıvan Müsəlman Milli Şurası üzvlərinin imzası ilə ingilis general qubernatoruna məktub göndərdilər və öz qəti etirazlarını bildirdilər. Məktubda Araz-Türk Respublikası əhalisinin “bütün dünyanın və bütün mədəni qüvvələrin azad həyat, xalqların öz müqəddəratını həll etmək hüququ haqqında qışqırdıqları bir vaxtda azərbaycanlılar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə, bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər” fikrinə gəlməsi faktı və səbəbləri öz əksini tapmışdır.

Naxçıvandakı ingilis missiyası ermənilərin respublika hüdudlarına hücumuna mane olmurdu və onların fəaliyyətində ikili siyasət özünü açıq-aşkar göstərirdi. Onlar bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təklifi ilə çıxış edirdilər. Naxçıvan əhalisi bu siyasətə qarşı inadla mübarizə aparırdı.

Naxçıvan Milli Şurasının sədri Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi məktubda bildirdi ki, biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik və əminik ki, hər hansı səbəbdən hərbi qüvvə ilə kömək edə bilməsə də, heç olmasa top, tüfəng və patronla Azərbaycan bizə kömək edəcəkdir. Və hətta Azərbaycan bundan da imtina etsə, biz bu yolda canımızdan keçəsi olsaq belə, müqəddəs vədimizi yerinə yetirəcəyik.

İngilis nümayəndələri çox canfəşanlıqla Naxçıvanı erməni “idarəçiliyinə” vermək istəyirdi. Müsəlman Milli Şurası və Naxçıvan əhalisi buna qəti etiraz edirdilər. Əhalinin bir müraciətində deyilirdi: “Ermənilərə tabe olmaqla biz təkcə özümüzü yox, həm də ömrü boyu bizə lənətlər oxuyacaq nəslimizi alçaltmağa və təhqirə məruz qoyuruq. Buna görə də əlahəzrət general Devinin bizim Naxçıvan, Şərur və Vedibasar rayonlarımızın müvəqqəti də olsa, erməni hökumətinin idarəsinə verməsinə biz Allah tərəfindən bütün diyarın əhalisinə bəxş edilmiş azadlıq, arzu və meyillər üzərində zorakılıq faktı kimi baxırıq”.

İngilis komandanlığının və Ermənistan hökumətinin qərarlarına tabe olmayan naxçıvanlılar erməni işğalçılarına qarşı silahlı mübarizə aparırdı. Respublikada süvari, top və pulemyotları olan 6 min əsgərdən ibarət yarımizami qoşun yaradılmışdı. Hərbi əməliyyatlar zamanı naxçıvanlılar onların sayını, təxminən, on min əsgərə və silahlı könüllülərə çatdırdılar.

***Erməni qoşunları dəfələrlə Naxçıvana hücum etmiş və layiqli cavablarını almışlar. Naxçıvanın şəhər və kəndlərinə hücumlarda təkcə erməni nizami qoşunları deyil, erməni əhalisi də iştirak edirdi.***

*(ardı var)*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

***Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi abidələrimizin öyrənilməsinə göstərdikləri diqqət və qayğı Azərbaycan tarixinin yeni səhifələrini yazmağa imkan vermişdir.***

# Naxçıvanın coğrafiyasına dair yeni faktlar



2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə I Kültəpə yaşayış yerində və onun ətrafında aparılan araşdırmalar zamanı xeyli yeni abidə aşkar edilmişdir. Beləliklə, I Kültəpə ətrafındakı Eneolit abidələrinin sayı, Kültəpə də daxil olmaqla, 21-ə çatmışdır. Bu abidələrin birində – Şorsu yaşayış yerində 10 x 10 metr sahədə qazıntı aparılmışdır. Tədqiqat zamanı müəyyən olmuşdur ki, yaşayış yerində təbəqə olduqca az saxlanmışdır. Mədəni təbəqə 15-20 santimetr qalınlığında, ağrəngli çürüntü və keramika olan yoğrulmuş bərk torpaq qatından ibarət idi. Təbəqədə daha çox keramika, bəzən isə obsidian və çaxmaqdaşı qəlpələri aşkar olunurdu. Lakin obsidian və çaxmaqdaşı alətlərin sayı da çox məhdud idi. Tədqiqat zamanı dördkünc formalı ev qalıqları, onların birində döşəməyə basdırılmış iki təsərrüfat küpü aşkarlanmışdır. Bəzi təsərrüfat küpləri evin içərisində deyil, onun yaxınlığında yerə basdırılmış halda aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, evin yaxınlığında yerə basdırılmış təsərrüfat küpləri bizim tədqiqatlarımız zamanı Ovçular təpəsindən də aşkarlanmışdır. Belə hesab edirik ki, yaşayış yerindəki hər bir ev ayrıca təsərrüfat vahidi olmuşdur.

Arxeoloji tapıntıların böyük bir qismi keramika məmulatlarıdır. Keramika nümunələri, hələlik, petroqrafik analiz edilməmişdir. Lakin bu qrupdakıların əksəriyyəti qum və saman qarışığı olan gildən hazırlanmışdır. Bununla belə, saman qarışığı bəzi nümunələrdə az, bəzilərində isə yüksəkdir. Qabların gilinə bəzən iri qum və çınqıl da qatılmışdır. Yalnız qum qarışığı olan keramika olduqca azdır. Qablar qaba hazırlanmışdır. Onların xarici səthi nahamar və kələ-kötürdür. Lakin yaxşı sığallanmış qablar da vardır. Cilalama yoxdur. Onların hamısı əldə hazırlanmışdır. Rəng tonları qırmızı rəngin müxtəlif çalarları ilə təmsil olunmuşdur. Rəng çalarları Azərbaycanın cənub rayonlarında olan abidələrlə, xüsusilə Hacı Firuz yaşayış yerinin keramikası ilə bənzərdir.

Məlum olduğu kimi, Azərbaycanın şimal rayonlarında, Şomutəpətipli abidələrdə, başlıca olaraq, qum qarışıq keramika üstünlük təşkil etmişdir. Tədqiqatçı İ.H.Nərimanovun fikrinə görə, bu tip keramika Kür çayının orta axarlarında yayılmışdır. Şimalda bu tip keramika Dağıstana, cənubda isə Araz çayına və Ağrı vadisinədək yayılmışdır. Lakin bu abidələrdən fərqli olaraq, Naxçıvan abidələrində samanlı keramika üstünlük təşkil edir. Bu, I Kültəpənin və Şorsunun keramikasında da izlənir. Qeyd etmək lazımdır ki, I Kültəpənin keramikası sıx saman qarışığı olması ilə fərqlənir. İ.H.Nərimanova görə, Ağrı vadisindən şərqdə qum qarışıq keramika məlum deyil. Bu həmçinin Naxçıvanda son illərin araşdırmaları ilə də təsdiqlənir və Cənubi Azərbaycan, Mil, Muğan düzünün abidələri ilə bağlanan Naxçıvanın qədim mədəniyyətinin özünəməxsus inkişaf yolu olduğunu təsdiq edir.

Əvvəlki illərdə aparılan araşdırmalar zamanı biz Şorsu keramikasının arxaikliyi ilə fərqləndiyini müşahidə etmişdik. 2013-cü ildə aparılan tədqiqatlar bu ehtimalların düzgün olduğunu təsdiqlədi. Keramika məmulatının tipoloji analizi göstərir ki, Şorsu keramikası, başlıca olaraq, Urmiya hövzəsi, Şimal-Qərbi İran, Şərqi Anadolu, həmçinin Şərqi Avropanın materialları ilə bənzərdir. Bu abidələr e.ə. VI-V minilliklərə aid edilir. Nəzərə alsaq ki, Şorsu keramikasının əksəriyyətinin bənzərləri Neolit abidələrindən məlumdur, o zaman Şorsu yaşayış yerini e.ə. VI əsrin ikinci yarısı və sonu ilə tarixləndirmək olar.

I Kültəpə ətrafında yerləşən arxeoloji abidələrin araşdırılması göstərir ki, ölkəmizin qədim sakinləri ətraf mühitlə yaxşı tanış imişlər və ehtimal ki, köçəri həyatı mənimsəmişdilər. Xatunarx yaşayış yerinin tədqiqi zamanı köçmə maldarlığa keçidlə bağlı faktlar aşkar olunsa da, Şorsuda, hələlik, maldarlıqla bağlı maddi-mədəniyyət nümunələri aşkar olunmamışdır. Ehtimal ki, istehsal təsərrüfatının mövcudluğu şəraitində yığıcılıq da təsərrüfatda əsas rol oynamışdır. Naxçıvan ərazisinin yabanı taxıl növləri və faydalı qazıntılarla zəngin olması da bunu təsdiq edir.

Naxçıvanın Neolit və Eneolit abidələrinin tədqiqi Naxçıvanın tarixi coğrafiyası ilə bağlı maraqlı faktları ortaya çıxarmışdır. Yaşayış yerlərindən aşkar olunan arxeoloji materialların bir qismi obsidian əmək alətlərindən ibarətdir. Obsidian alətlərin hazırlanmasında şəffaf və qeyri-şəffaf obsidiandan istifadə olunmuşdur. Naxçıvanın qədim sakinləri obsidianı Göyçə gölü hövzəsində yerləşən Göyəm, Göyhasar yataqlarından və Naxçıvan yaxınlığındakı Sünikdən əldə etmişlər. Lakin İrəvan yaxınlığında, Ağrı vadisində yerləşən qədim yaşayış yerlərinin sakinləri, başlıca olaraq, Qərbi Azərbaycanın (indiki Ermənistanın) qərbində yerləşən yataqlardan istifadə etmişlər. Göyçə gölü hövzəsindəki yataqlar Naxçıvanda yaşayan tayfaların nəzərində olmuşdur. Naxçıvanın şimalında – Sünikdə yerləşən yataqlardan çıxarılan obsidian Naxçıvan vasitəsi ilə Azərbaycanın Arazdan cənubda yerləşən bölgələrinə yayılmışdır. Araşdırmalar göstərir ki, Urmiya hövzəsinin yaşayış yerlərində və Mərənd Kültəpəsində, başlıca olaraq, Sünik obsidianı istifadə edilmişdir. Sünik obsidianından istifadə göstərilən abidələrdə 90 faiz təşkil edir. Ehtimal ki, Şorsu çayı boyunca yerləşən çoxsaylı Eneolit abidələri ölkəmizin qədim sakinlərinin xammal mənbələrinə doğru irəlilədiyi yolu göstərir. Araşdırmalara əsaslanaraq demək olar ki, Naxçıvanın qədim tarixi coğrafiyası Göyçə hövzəsi daxil olmaqla, Qərbi Azərbaycanın böyük bir qismini və Arazdan cənubdakı əraziləri əhatə etmişdir. Tarixi inkişafın sonrakı dövründə, xüsusilə e.ə. I minillikdə Naxçıvan əhalisinin Göyçə ətrafında yaşayan tayfalarla vahid ittifaq halında birləşməsi də bunu təsdiq edir.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Koreya və İtaliyada ermənilərin Naxçıvana qarşı ərazi iddiaları, Almaniya və Qazaxıstanda isə Naxçıvanın orta əsrlər dövrü tarixi ilə bağlı məqalələr çap edilib

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin Cənubi Koreya Respublikasının Kim Çonq Universitetinin elmi dərgisində çapdan çıxan yeni məqaləsi "Ermənilərin Naxçıvana qarşı ərazi iddiaları və tarixi faktlar" adlanır. Məqalədə erməni işğalçılarının əsassız ərazi iddiaları, azərbaycanlılara qarşı törətdikləri qırğınlar və soyqırımlar haqqında məlumat verilir və iddiaların heç bir tarixi əsası olmadığı ciddi elmi faktlarla sübuta yetirilir.

Bu mövzuda müəllifin daha bir məqaləsi "İrs" beynəlxalq jurnalının 2013-cü ildə italyan dilində çapdan çıxan birinci buraxılışında nəşr edilib. Məqalə italyandilli oxuculara tarixi həqiqətlərin çatdırılmasına xidmət edir.

Akademik İsmayıl Hacıyevin Almaniyanın "Referans" adlı mədəniyyət, sənət və ədəbiyyat dərgisində və Qazaxıstanda çap olunan Türk Akademiyasının "Türk dünyası" almanaxında da Naxçıvanın orta əsrlər tarixinə dair geniş məqalələri işıq üzü görüb. "Əcaib əd-Dünya" ("Dünyanın qəribəlikləri") əsəri Azərbaycana bağlı Naxçıvanın tarixinin öyrənilməsində mühüm mənbə kimi" adlanan məqalədə adıçəkilən əsərin Naxçıvanla bağlı verdiyi məlumatların elmi təhlili aparılır, orta əsr Naxçıvanının mövqeyi, şəhərləri, yaşayış məskənləri, təsərrüfatı ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirilir.

Qeyd edək ki, ümumilikdə, müəllifin ötən il 2 monoqrafiyası, 20 elmi məqaləsi nəşr edilib. O, "Naxçıvan tarixi" çoxcildliyinin I cildinin əsas müəlliflərindən biridir.

✍ **Elnur KƏLBİZADƏ**

## Xüsusi qayğıya ehtiyacı olan ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi əməkdaşlarının iştirakı ilə Şahbuz şəhərində yaşayan sağlamlıq imkanları məhdud vətəndaş Qabil Nağıyevin ailəsi ilə görüş keçirilmişdir. Tədbir iştirakçıları xüsusi qayğıya ehtiyacı olan ailənin məişəti, yaşayış vəziyyəti ilə maraqlanmış, ailə üzvləri tibbi müayinədən keçirilmiş, ailəyə ərzaq payı və məişət avadanlığı – paltaryuyan maşın verilmişdir.

Qabil Nağıyev ailə üzvləri adından onlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirmişdir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, müvafiq kateqoriyadan olan ailələrə dövlət qayğısı ilbəil artırılır. Xüsusi qayğıya ehtiyacı olan ailələrə evlərində baş çəkmək, onların sosial problemlərinin həllinə köməklik göstərmək artıq ənənə halını almışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Toylarımız qara zurnasız olmasın...

## *Milli dəyərləri unutmaq müasirləşmək, yeniləşmək demək deyil*

***Gəlin etiraf edək ki, xalqımızın qədim musiqi aləti olan zurnanın səsi gələndə qanımız qaynayır. Bu səs yeni bir xeyir işin başlamasının xəbərçisidir... Bir vaxtlar zurna səsi eşidəndə böyük-kiçik demədən – ulu babalarımız, nənələrimiz, qız-gəlinlərimiz, igid oğullarımız bu səsin gəldiyi yerə toplaşmağa tələsərmiş. Bilirmişlər ki, qara zurnanın səsinə qurşaq tutulacaq, ərənlər at belində qəhrəmanlıqlar göstərəcəklər.***

Bəs bu musiqi alətinin sirri nədədir? Zurnanı, necə deyərlər, icad edənlər o vaxt nə düşünüblər? Bizcə, bu suallara birmənalı cavab vermək mümkün deyil… Çünki cavablar çoxdur. Bir qədər keçmişə ekskurs etsək, suallarımıza qismən cavab tapa bilərik. Öncə Azərbaycan folklorunda zurna ilə bağlı deyilənlərə nəzər salaq. Məsələn, atalar sözlərinə: "El çalan zurnanın səsi uzağa gedər", "Toyun axırında zurna belə səslənər" və sair. Gur və güclü səsi olan bu milli nəfəsli musiqi alətinə xalq arasında "qara zurna" da deyilir. Mütəxəssislərin rəyinə görə, "qara" sözü keçmişdə zurnanın qara rəngli kəl və öküz buynuzundan hazırlanması ilə əlaqədardır. Bəziləri isə zurnanın "surnay" sözündən olub, sur "böyük ziyafət", nay "qarğı", "qamış" mənasını verdiyi qənaətindədir. Hər iki versiya ilə razılaşmaq olar. Quruluşuna gəldikdə isə bu musiqi alətinin tərkib hissələrinə gövdə, maşa, mil, dil, tağalaq və qapaq daxildir. Uzunluğu 280-300 mm olan gövdə, əsasən, ərik ağacından hazırlanır. Onun üzərində səkkiz üst pərdə, baş tərəfə yaxın isə bir alt pərdə açılır. Gövdənin enli "ayaq" hissəsindəki pərdə həmişə açıq qalır. Gövdənin diametri altıncı pərdədən başlayaraq tədricən artır və gövdə ayaq hissədə konusvari şəkil alır. Gövdəyə alətin baş hissəsi tərəfindən söyüddən hazırlanmış haça şəkilli "maşa" salınır. Onun vəzifəsi səsi nizamlamaq və gücləndirməkdir. Maşaya bürünc və ya sümükdən düzəldilmiş mil taxılır. Milə isə sədəf və ya sümükdən hazırlanmış dairəvi şəkilli "tağalaq" keçirilir. Çalğı zamanı dodaq ona toxunur. Çalğıdan sonra dil qapaqla örtülür.

Azərbaycan xalqının ənənəvi toylarını, xüsusilə də Naxçıvan toylarını qara zurnasız təsəvvür etmək qeyri-mümkün idi. Ancaq etiraf etmək lazımdır ki, son illərdə şadlıq saraylarında təsadüfən zurna səsinə rast gəlirsən. Düzdür, kənd toylarında, xüsusilə də Şərur və Şahbuz bölgələrində qara zurnaya daha çox üstünlük verirlər. Çünki elə Naxçıvanın emblemi sayılan yallılarımızın əksəriyyəti zurna ilə ifa olunanda daha xoş təsir bağışlayır. Belə demək mümkündürsə, yallılarımızda rəqqasların tamaşaçıya çatdırmaq istədiyi fikri qara zurna ilə daha canlı ifa etmək mümkündür. Ancaq təəssüf hissi ilə qeyd edək ki, bu gün muxtar respublikamızın ərazisində qara zurna ifaçılarının sayı getdikcə azalır. Bunu apardığımız kiçik araşdırmada da gördük. Söhbətləşdiyimiz mədəniyyət işçiləri, ziyalılar, sadə vətəndaşlar toylar üçün zurna ifaçıları tapmağın xeyli çətin olduğunu söylədilər. Bununla bağlı Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Kərim Qazıbəyov dedi ki, rayonda toylarda bunun çətinliklərini daha çox kənd sakinləri yaşayırlar. Hamı istəyir ki, toy maraqlı keçsin və təbii ki, bu da əksər hallarda zurnasız mümkün olmur. El şənliklərində, məsələn, Novruz bayramında bu çətinliyi daha çox hiss edirik. Bu boşluğu doldurmaq üçün üz tuturuq Şərur rayonuna. Bu bölgəmizdə, sağ olsunlar, hələ də qədim musiqi alətimizi yaşadanlar var. Ancaq onların da sayı azalmaqdadır.

Digər müsahibimiz 80 yaşlı Hüseyn İsmayılovdur. Məlumat üçün bildirək ki, bu el ağsaqqalı uzun illər Şərur bölgəsinin toy-bayramlarını zurna ilə yola verib. Onun söhbəti:

– Nə olsun ki, toy edənlərin zurna ifaçısına ehtiyacı var. Gərək gənclərdə də buna maraq artırasan ki, onlar gələcəkdə bu işlə məşğul olsunlar. Bu yaxınlarda bir toya getmişdim. Toyda nə yallı gedildi, nə qara zurnanın səsi eşidildi. İnanın ki, nə qədər narahat oldum. Belə cansıxıcı toy görməmişdim. Düşündüm ki, hanı bizim qara zurnamız, qoşa nağaramız? Burada səslənən bayağı mahnılar insanın lap bağrını çatladır. Az qaldım gedəm evdən qara zurnamı gətirəm, səsi dağlara yayılsın. Ancaq səhhətim buna imkan vermir, yaşlaşmışam. Rəhmətlik qardaşım da zurnaçalan olub. Çoxlu xarici ölkələrdə keçirilən tədbirlərdə iştirak etmişik. O ölkələrdə zurnaya olan maraq bizim də qəlbimizi qürurlandırıb. İnanın ki, tədbirlərdə zurna səsi gələndə bütün salon canlanırdı. Mən zurnamla həmişə fəxr etmişəm. Rəhmətlik qardaşım bu sənəti övladlarına da öyrətmişdi. Ancaq sonra onlar başqa musiqi alətlərinə yönəldilər. İndi bilirsiniz ki, şadlıq saraylarında o qədər də zurnaya ehtiyac duyulmur. Bu musiqi alətini ifa edənlər barmaqla sayılır. Zurnaya biganəlik haradandır?



Bəli, Hüseyn kişi haqlıdır. Gəlin etiraf edək ki, bu gün toylarımızda zurnanı başqa alətlər əvəz edib. Əleyhinə deyilik. Olsun. Ancaq həmin musiqi alətləri ilə yanaşı, zurna və digər qədim milli musiqi alətlərimizi unutmamalıyıq. Bu alət ulu babalarımızdan bizə qalan qiymətli milli dəyərlərdən biridir. Onu unutmağa heç birimizin haqqı yoxdur. Digər bir məsələ, gəlin onu da etiraf edək ki, bu gün toylarımızda səsgücləndiricilər vasitəsilə yayılan elə mahnılar səslənir ki, insanın haqlı narazılığına səbəb olur. Bir zamanlar bir-birindən gözəl, ruhumuzu qidalandıran xalq mahnılarını əvəzləyən, bəsit musiqisi və mənasız sözləri ilə təqdim olunan belə "mahnılar", təəssüflər olsun ki, əksər şadlıq evlərinin mahnı repertuarında əsas yerləri tutur. Bəs hanı bizim "Uzundərə", "İnnabı", "Heyvagülü", "Xançobanı", "Qaytağı" kimi milli musiqilərimiz, damarımızda qanımızı oynadan yallılarımız? Təəssüf ki, unudulur, zövqümüz fərqinə varmadan korlanır.

Onu da qeyd edim ki, muxtar respublikada yaşayan 10-15 nəfər zurna ifaçısının bəzən Bakı toylarına, hətta xarici ölkələrə dəvət almaları bu musiqi alətinə maraqla bağlıdır. O da var ki, Naxçıvan toyları isə qara zurnasız keçir. Araşdırmamızdan məlum oldu ki, muxtar respublikanın heç bir uşaq musiqi məktəbində zurna ixtisası tədris olunmur. Səbəbi isə odur ki, öyrədən və öyrənmək istəyən yoxdur.

Gəlin çalışaq, toylarımız qara zurnasız olmasın. Bu işdə hamımız əlbir olmalı, qara zurnamızı təbliğ etməliyik. Ulu babalarımız heç bir musiqi təhsili almadan bu musiqi alətini yaradıb, nəsildən-nəslə ötürüb. İmkan verməməliyik ki, nə zamanın kəşməkəşləri, nə də ki müasirləşmə, yeniləşmə qara zurnamızı və bu kimi digər qədim musiqi alətlərimizi unutdursun! Onları göz bəbəyi kimi qorumalıyıq! Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Xalqın milli dəyərlərini qorumaq onun gələcəyini qorumaq deməkdir. Azərbaycan xalqına məxsus milli dəyərlər min illər boyu formalaşaraq bizə çatmışdır. Ona görə də bu dəyərləri qorumaq və yaşatmaq hər birimizin ən ümdə vəzifəsi olmalıdır. Bu gün uşaq və gənclərimiz musiqi məktəblərində təhsil almadan xarici musiqi alətlərində ifa edə bilmirlər. Lakin tarı, sazı, balabanı, zərb alətlərini musiqi təhsili almadan da ifa edirlər. Bu, milli kökümüzə bağlılıqdan irəli gəlir. Bu həm də bizim qədim mədəni irsimizə hörmət və ehtiramımızın ifadəsidir".***

**Sevindirici haldır ki, bu gün Naxçıvan Muxtar Respublikasında milli dəyərlərimizə sahib çıxılır, onun təbliği üçün müxtəlif addımlar atılır. Heç şübhə yoxdur ki, qara zurnamız da bu yaşıl işıqdan bəhrələnəcək. Qara zurna ifaçılarının sayı artacaq, musiqi məktəblərində bu alətin də tədrisinə nail olunacaqdır. Əlbəttə, milli sərvət sahiblik sevir! Laqeydlik, unutqanlıq dəyərlərimizin əldən getməsinə səbəb ola bilər. Gəlin biz öz milli dəyərlərimizin keşiyində dayanaq, onu nümayiş etdirək, qoruyaq və gələcək nəsillərə çatdıraq. Bu, hər birimizin ən böyük vətəndaşlıq borcudur.**

✍ **Sara ƏZİMOVA**

## Naxçıvan şəhərini "Gənclər paytaxtı" seçək

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən "Gənclər paytaxtı – 2014"ün seçimlərinə artıq start verilib. "Paytaxt" internet səsverməsiylə seçilir. Qeyd edək ki, bu səsvermədə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasından Naxçıvan şəhərinin də namizədliyi irəli sürülmüşdür. Fevralın 1-dək keçiriləcək səsvermə hamı üçün açıq olan ***www.genclerpaytaxti.az*** saytı vasitəsilə reallaşdırılacaq. Səsvermədə yaşadığı yerdən, vətəndaşlığından, yaşından, milliyyətindən asılı olmayaraq, hər kəs Azərbaycanın gənclər paytaxtının seçilməsində iştirak edə bilər. Açıq, şəffaf, bərabər olmaqla, 3




prinsip əsasında aparılan səsvermə zamanı verilən hər səs dərhal nəzərə alınır və şəhərin reytinqini bir xal artırır. Səsvermə başa çatdıqdan sonra ən çox səs toplamış şəhər (rayon) qalib seçilir. Əgər Naxçıvan şəhərini gənclər paytaxtı görmək istəyiriksə, ***www.genclerpaytaxti.az*** saytına daxil olub səs vermək lazımdır. Qədim Naxçıvanımızın "Gənclər paytaxtı" seçilməsi şəhərimizdəki gənclərin təşəbbüslərinin və beynəlxalq əlaqələrinin inkişafı üçün növbəti bir stimul olacaq. Həmçinin regionda sosial və iqtisadi fəaliyyət də artacaq. "Gənclər paytaxtı" 1 il müddətinə seçilir. Bu müddət ərzində həmin şəhər (rayon) gənclərin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin edir, onların intellektual və yaradıcılıq potensialının artırılmasına, yeni ideya və layihələrin həyata keçirilməsinə dəstək verir. Əziz naxçıvanlılar, gəlin hamılıqla bu səsvermədə fəal iştirak edək, gündən-günə gözəlləşən və müasirləşən Naxçıvan şəhərini "Gənclər paytaxtı" seçək.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin***
***mətbuat xidməti***


### Naxçıvan Qızlar Liseyi MMC

*2014-cü il üçün kotirovka elan edir*

*1.Ərzaq məhsullarının satın alınması*

Kotirovka 25 yanvar 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi, maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 29 yanvar 2014-cü il tarixdə saat 11[00]-də Qızlar Liseyində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Xəlilov Yusif, telefon: 545-03-47***

### *İşaxtaran vətəndaşların nəzərinə!*

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaran vətəndaşları Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı peşəsi üzrə kurs keçməyə dəvət edir. Tədris müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2014-cü il fevralın 10-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

1. *Yaşayış yerindən arayış*
2. *Şəxsiyyət vəsiqəsinin surəti*
3. *Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***


### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi iş yoldaşları Daşqın Rəhimova, atası
**HİDAYƏT RƏHİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi Ələkbər Qasımova, əzizi
**SƏFƏR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserin kollektivi dispanserin baş həkimi Mirkamal Seyidova, xalası
**NARDANƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi iş yoldaşları Rafiq Rəhimova, əmisi
**HİDAYƏTİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin əməkdaşlarından Akif Mərdanlı, Yasin Babayev, Şəmil Mahmudov və Həbib Hüseynov Rafiq Rəhimova, əzizi
**HİDAYƏTİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun kollektivi iş yoldaşları Ələkbər Qasımova, qayınatası
**SƏFƏR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 102